2023.- 3 fevral.- S.8.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

# Tarixə çevrilmiş Bakı tramvayı





*Yeganə BAYRAMOVA*

Bu gün Bakıda ilk tramvay xəttinin istifadəyə verilməsindən 99 il ötür. Müasir dünyamızın ən aktual problemlərindən biri nəqliyyat vasitələrinin ətraf mühitə təsiridir. Avtomobil praktiki olaraq biosferin bütün tərkib hissələrinə - atmosferə, su və torpaq resurslarına, litosferə və insana mənfi təsir göstərir. Bu günün avtomobili qeyri-ekoloji nəqliyyat vasitəsidir. İlk baxışdan elə görünür ki, bu problemin həlli yolları yoxdur. Amma bir çox ölkələr problemin həllini alternativ nəqliyyat vasitələrindən istifadədə görürlər. Belə nəqliyyat vasitələri - tramvay və trolleybuslar, elektrik qatarlarıdır.

Dünyada ilk tramvaylar 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərində şəhərlərin əsas nəqliyyat vasitəsi olub. Həmin dövrdə onunla layiqli rəqabət apara biləcək nəqliyyat vasitəsi olmayıb.

**80 il "yaşadı"...**

Vaxt var idi Bakının küçələrində qırmızı tramvaylar şütüyür, elektrik qatarları insanları Bakıətrafı qəsəbələrə çatdırırdı. Hələ 1889-cu ildə yeganə olaraq şəhər nəqliyyatı üçün Bakıda "konka" tikilmişdi. Ancaq bu nəqliyyat növü tələbatı tam ödəmədiyi üçün 1922-ci ildə şəhərdə tramvay xətlərinin tikintisinə başlanıb. Bu tikinti nəinki Zaqafqaziyada, demək olar ki, SSRİ-də nəhəng tikintilərdən biri hesab edilirdi. Nəhayət, 1924-cü il fevralın 3-də Bakı küçələrində Dəmiryol vağzalı ilə Azneft meydanını birləşdirən ilk tramvay göründü. İlk dəfə tramvayın idarə olunması at sürücüsü Aleksandr Lisovskiyə həvalə edilib. O, bunu belə xatırlayırdı: "İlk bir neçə saat sərnişinləri pulsuz daşıyırdıq. Bu, bütün insanlar üçün əsl böyük bayram idi".

1924-cü ilin sonunda Bakı tramvayı 72 vaqonla uzunluğu 35,9 km olan xətdə işləyib. 1939-cu ildə isə Bakıda tramvay sisteminin uzunluğu 117 km-ə çatıb. 1960-cı illərdə Bakıda tramvay sisteminin inkişafı ictimai nəqliyyatın digər növlərindən zəif inkişaf edib, əsas diqqət metro tikintisinə, avtobusların artırılmasına yönəldilib. Beləliklə, şəhərin tramvay şəbəkəsi tədricən azalıb. 1980-ci ildə Bakı tramvay şəbəkəsinin uzunluğu 70 km-ə düşdü. 20-ci əsrin 90-cı illərindən Bakının ictimai nəqliyyat sistemindən tramvay intensiv surətdə sıxışdırılmağa başlanıb. 2004-cü ilin yanvarında Bakı tramvayı "Xətai" metrostansiyası - "Montin bazarı" marşrutu ilə sonuncu dəfə hərəkət etdi. Bununla da, paytaxtımızın ayrılmaz hissəsi olan zəhmətsevər Bakı tramvayının 80 illik tarixi sona yetdi...